# Bildiriş

Rəsmi statistika sahəsində həyata keçirilən islahatlar çərçivəsində statistik vahidlərin üzərinə düşən məlumat yükünün azaldılması məqsədilə Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2023-cü il 18 avqust tarixli, 39/14 nömrəli, 2023-cü il 28 sentyabr tarixli, 48/14 nömrəli, 2023-cü il 28 dekabr tarixli, 56/18 nömrəli və 2023-cü il 28 dekabr tarixli, 57/18 nömrəli qərarları ilə aşağıdakı rəsmi statistika hesabatı formaları ləğv edilmişdir.

1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2013-cü il 02 iyul tarixli, 87/14 №-li qərarı ilə təsdiq edilmiş "Obyektlərin, əsas fondların istifadəyə verilməsi və əsas kapitala yönəldilmiş investisiyalar haqqında" 12-investisiya №-li aylıq hesabata əlavə "İstifadəyə verilmiş əsas fondların, yaşayış evlərinin, sosial-mədəni tikililərin və əsas kapitala yönəldilmiş vəsaitlərin regionlar üzrə bölgüsü" rüblük rəsmi statistika hesabatı forması.
2. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2013-cü il 18 iyun tarixli, 78/14 №-li qərarı ilə təsdiq edilmiş "Tikili və obyektlərin tikintisi haqqında" 2-əsaslı tikinti №-li aylıq rəsmi statistika hesabatı forması.
3. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2013-cü il 02 iyul tarixli, 88/14 №-li qərarı ilə təsdiq edilmiş "Obyektlərin, əsas fondların istifadəyə verilməsi və əsas kapitala yönəldilmiş investisiyalar haqqında" 1-investisiya №-li illik hesabata əlavə "İstifadəyə verilmiş əsas fondların, yaşayış evlərinin, sosial-mədəni tikililərin və əsas kapitala yönəldilmiş vəsaitlərin regionlar üzrə bölgüsü" illik rəsmi statistika hesabatı forması.
4. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2013-cü il 6 may tarixli, 41/09 №-li qərarı ilə təsdiq edilmiş "Şəhərlərarası telefon rabitəsinin texniki vasitələri haqqında" 1-şəhərlərarası rabitə №-li illik rəsmi statistika hesabatı forması.
5. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2013-cü il 6 may tarixli, 43/09 №-li qərarı ilə təsdiq edilmiş " Televiziya, radio və peyk rabitəsinin texniki vasitələri və yayımı haqqında" 51 №-li (rabitə) illik rəsmi statistika hesabatı forması.